


# YENİ AZƏRBAYCAN PARTİYASININ TƏBLİĞAT-TƏŞVİQAT KAMPANİYASI UĞURLA DAVAM EDİR



## Cənab İlham Əliyev kimi müdrik liderə səs vermək ikiqat şərəfdir

**Ötən gün Yeni Azərbaycan Partiyası (YAP) Mərkəzi Seçki Qərargahı Səbail rayon şöbəsi təbliğat-təşviqat kampaniyası çərçivəsində ilk dəfə səs verəcək gənclərlə “İLHAMLA İRƏLİ” şüarı altında görüş keçirib. Görüşdə 250-dən çox gənc iştirak edib.**



Çıxış edən Milli Məclisin deputatı, YAP Mərkəzi Seçki Qərargahı Səbail rayon şöbəsinin sədri Şəmsəddin Hacıyev bu il ilk dəfə səs verəcək gəncləri təbrik edib: “İlk dəfə səs vermək və ümumxalq səsvermədə öz siyasi iradəsini nümayiş etdirmək hər bir gəncin həyatında tarixi hadisədir. İlk dəfə səs vermək nə qədər əhəmiyyətlidirsə, cənab İlham Əliyev kimi müdrik liderə səs vermək ikiqat şərəflidir. Cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə gənclərə göstərilən diqqət və qayğı, bu sahədə reallaşdırılan uğurlu layihələrin sayı və miqyası günbəgün artır”.



Ş.Hacıyev dövlət başçısı cənab İlham Əliyevin həyata keçirdiyi düşünülmüş siyasət nəticəsində müstəqil Azərbaycanın bütün sahələrdə əldə etdiyi misilsiz uğurlar, reallaşdırılan çoxşaxəli iqtisadi və siyasi islahatlar, tarixi əhəmiyyət daşıyan beynəlxalq enerji və nəqliyyat layihələri haqqında danışıb: “Azərbaycanda mövcud olan inkişaf və tərəqqi, əldə olunan möhtəşəm nailiyyətlərin əsasını ulu öndər Heydər Əliyevin ideyaları və cənab Prezident İlham Əliyevin məharətli idarəçiliyi təşkil edir. Bütün misilsiz uğurlarımız, ölkəmizdəki siyasi, iqtisadi və sosial sabitlik məhz dövlət başçısı cənab İlham Əliyevin düşünülmüş siyasətinin nəticəsidir”.

Ş.Hacıyev gəncləri seçkilərdə fəal olmağa və əldə edilən nailiyyətlərin, ölkəmizdəki ictimai-sabitliyin davamlı olması üçün Yeni Azərbaycan Partiyasının namizədinə səs verməyə çağırıb.

Çıxış edən YAP Gənclər Birliyinin sədr müavini Samirə Quliyeva, partiyanın Nərimanov rayon təşkilatı Gənclər Birliyinin sədri Yusif Babanlı, YAP Səbail rayon təşkilatı Gənclər Birliyinin sədr müavini Fərid Nəsibov, Azərbaycan Dövlət İqtisad Universitetinin professoru Əvəz Bayramov, YAP Səbail rayon təşkilatının baş məsləhətçisi Bəyim Nəbiyeva, Qərbi Kaspi Universitetinin tələbəsi Yadigar Nağıyev və digərləri cənab İlham Əliyevin Azərbaycanın inkişafı üçün gördüyü işlərdən danışaraq gəncləri daha qüdrətli və dinamik inkişaf edən Azərbaycan naminə cənab İlham Əliyevin namizədliyini dəstəkləməyə çağırıblar.

Tədbirdə Səbailli gənclər YAP-ı dəstəkləyən çoxsaylı şüarlar səsləndirərək yekdilliklə cənab İlham Əliyevə səs verəcəklərini bildiriblər.

Hazırladı: **Cavid Əkbərov, *“İki sahil”***

## YAP Qaradağ rayon təşkilatı cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyasını uğurla davam etdirir

**Yeni Azərbaycan Partiyasının (YAP) Qaradağ rayon təşkilatı 11 apreldə keçiriləcək prezident seçkilərində YAP-ın namizədi cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyasını uğurla davam etdirir. Rayonda “Şədərək” firmasının “İqtisadiyyat” zalında keçirilən növbəti görüş də yüksək seçici fəallığı və mütəşəkkilliklə müşayiət olunub.**





YAP Qaradağ rayon təşkilatının sədri, Milli Məclisin deputatı Aydın Hüseynov cənab İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi ötən 15 ildə qazanılmış möhtəşəm nailiyyətlər barədə məlumat verib. A.Hüseynov bildirib ki, Azərbaycan iqtisadiyyatı bu illər ərzində 3,2 dəfə artıb, qeyri-neft iqtisadiyyatı isə 2,8 dəfə yüksəlib. Sənaye 2,6 dəfə, kənd təsərrüfatı 1,7 dəfə, qeyri-neft ixracı 4,1 dəfə artıb. Onun sözlərinə görə, son 15 ildə Azərbaycanda 1,9 milyon iş yeri yaradılıb və onlardan 1,4 milyonu daimi iş yeridir. Həmin dövr ərzində Azərbaycan iqtisadiyyatına 231 milyard dollar sərmayə qoyulub. Bu gün Azərbaycan iqtisadiyyatı güclü sahibkarlıq sinfinin formalaşması sayəsində inkişaf etməkdədir. “Bu gün hər bir Azərbaycan vətəndaşı məmnunluq hissi ilə dərk edir ki, Azərbaycanın əzəmətli inkişafı birbaşa Prezident, YAP Sədri İlham Əliyevin adı və həyata keçirdiyi siyasətlə bağlıdır”, - deyən Aydın Hüseynov əminliklə vurğulayıb ki, bu uğurların davamlı olması üçün Azərbaycan xalqı 11 apreldə növbəti dəfə İlham Əliyevi dəstəkləyərək ölkəmizin daha da güclənməsinə səs verəcək.

Milli Məclisin deputatı, “Yeni Azərbaycan” qəzetinin baş redaktoru Hikmət Babaoğlu bildirib ki, Prezident İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi 2003-cü ildən bu vaxtadək olan müddət Azərbaycan tarixinə hərtərəfli və sürətli inkişaf dövrü kimi daxil olub. Onun sözlərinə görə, sosial-siyasi sabitliyin qorunmasının, mövcud iqtisadi inkişafın, hərtərəfli tərəqqinin təməlində ümummilli lider Heydər Əliyevin inkişaf strategiyası, Onun müəyyənləşdirdiyi daxili və xarici siyasət xətti dayanır.

Deputat deyib ki, məhz Azərbaycan xalqının alternativsiz lideri cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən müstəqil siyasətin nəticəsidir ki, bu gün Azərbaycan heç bir xarici qüvvədən asılı deyil, öz enerji, ərzaq və hərbi təhlükəsizliyini təmin etmək iqtidarındadır. “Təbii resurslardan düzgün istifadə edilməsi nəticəsində ölkəmiz maliyyə imkanlarını genişləndirib. Bütün sahələr üzrə dinamik inkişaf göstəricilərinə nail olan Azərbaycan qarşıya çıxan maneələri aradan qaldırmaq gücündədir. Bu səbəbdən, respublikamız ən çətin vaxtlarda da kənar yardımlara ehtiyac hiss etmir. Bütün dünyanı iqtisadi böhran bürüdüyü zamanda Azərbaycan ciddi zərərə məruz qalmayan azsaylı ölkələrdən biri oldu. Kapital imkanları genişlənən ölkəmiz nəinki kənar yardımlara ehtiyac duymur, hətta özü də donor ölkə kimi çıxış edir. Bir sözlə, Azərbaycan, sözün əsl mənasında, özünü təmin edən dövlətdir. Bütün bu nailiyyətlərin əldə edilməsi isə Prezident İlham Əliyevin həyata keçirdiyi siyasət sayəsində mümkün olub. Ona görə də 11 aprel 2018-ci il prezident seçkilərində xalqın yalnız bir seçimi olacaq və bu seçim də cənab İlham Əliyevdir, - deyə Hikmət Babaoğlu vurğulayıb.



Tədbirdə həmçinin Azər Mirzəyev, Sabir Ələkbərov, Vaqif Hüseynli, Kəmaləddin Qədimi, Xaliq Məmmədov və digərləri çıxış edərək cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan dövlətinin bütün sahələrdə əldə etdiyi uğurlar haqqında geniş məlumat veriblər. Çıxış edənlər əminliklə bildiriblər ki, xalqımızın mütləq əksəriyyəti aprelin 11-də keçiriləcək prezident seçkilərində ən doğru seçim edərək cənab İlham Əliyevə səs verəcəklər!